

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 67 (23.709)

*15 aprel 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub. Dövlət başçıları görüşdə çıxış ediblər. Prezident İlham Əliyev deyib ki, qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində yaxşı nəticələr görürük. Keçən il pandemiyaya baxmayaraq, bizim əmtəə dövriyyəmiz artıb, Azərbaycandan Belarusa ixrac da artıb. Ona görə bu gün sənaye kooperasiyası ilə bağlı məsələləri də daha ətraflı müzakirə edəcəyik. Belarus şirkətlərinin öz ölkənizdə aqrosənaye kompleksləri yaradılması təcrübəsi bizə məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur. Sevindirici haldır ki, biz iştirak etdiyimiz beynəlxalq strukturlarda bundan sonra da bir-birimizi dəstəkləməkdə davam edəcəyik.

Prezident Aleksandr Lukaşenko vurğulayıb ki, bizim siyasət, iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlərimiz olduqca çoxşaxəlidir, çox düzgündür.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.

## Muxtar respublikanın hərtərəfli iqtisadi inkişafında sənayenin də mühüm rolu var



***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası hər bir sahənin inkişafı üçün konkret hədəf və məqsədlərin, onlara nail olunma yollarının dəqiq müəyyən edilməsini şərtləndirir. Bu strategiyanın əsas hədəfi olan vətəndaşların həyat səviyyəsinin davamlı olaraq yüksəldilməsi məqsədilə iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətinin artırılması, sahibkarlığın inkişaf etdirilməsi, müasir müəssisələrin açılması, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi və digər istiqamətlər üzrə sistemli tədbirlər həyata keçirilmişdir.***

Bunun nəticəsində hazırda ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 66,5 dəfə, hər nəfərə düşən ümumi daxili məhsulun həcmi 47,8 dəfə, sənaye məhsulunun həcmi 113,9 dəfə, əsas kapitala yönəldilən investisiyalar 341,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 13,9, nəqliyyat sektorunda yük daşınması 26,5, informasiya və rabitə xidmətlərinin həcmi 132, pərakəndə əmtəə dövriyyəsi 47,6, əhaliyə göstərilən pullu xidmətlər 63,4, xarici ticarət dövriyyəsinin həcmi 26,8, əhalinin gəlirləri 60,7, hər bir nəfərə düşən gəlirlər 44,1, ortaaylıq əməkhaqqı isə 33,7 dəfə artmışdır.

Muxtar respublikanın sosial-iqtisadi inkişafında məqsədli Dövlət proqramlarının icrası xüsusi əhəmiyyət kəsb edir. Diyarımızın sosial-iqtisadi inkişafına dair Dövlət proqramı çərçivəsində zəruri infrastruktur qurulmuş, o cümlədən nəqliyyat, qaz, enerji, su, meliorasiya layihələri, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial sahələrdə layihələr həyata keçirilmişdir. Muxtar respublika rəhbərinin rayonlarda müxtəlif təyinatlı obyektlərlə şəxsən tanış olması və hər bir rayonun inkişafı ilə bağlı qarşıda duran spesifik vəzifələri müəyyən edərək verdiyi tapşırıq və tövsiyələr, imzaladığı sərəncamlar tarazlı inkişafın təmin edilməsində müstəsna rol oynamışdır. Belə ki, 1995-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 3 milyon 49 min manat idisə, bu göstərici ötən müddət ərzində 341,4 dəfə artaraq 2020-ci ildə 1 milyard 41 milyon 17 min manatdan artıq təşkil etmişdir. Ümumilikdə, son illər ərzində muxtar respublika iqtisadiyyatına 11,7 milyard manatdan artıq investisiya yönəldilmişdir. Bu investisiyanın sərfi nəticəsində 418 elm və təhsil, 306 səhiyyə, 543 mədəniyyət, 622 inzibati bina, 187 körpü, 173 nasos stansiyası, 435 subartezian quyusu tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bununla yanaşı, min kilometrlərlə müasir səviyyəli yollar və yol qovşaqları tikilmiş, elektrik stansiyaları, su anbarları və digər infrastruktur obyektləri istifadəyə verilmişdir ki, bütün bunlar muxtar respublikanın iqtisadi qüdrətinin artmasına öz töhfəsini verir.

Muxtar respublikanın hərtərəfli iqtisadi inkişafında sənaye sahələrinin genişləndirilməsinin mühüm rolu vardır. Sənaye məhsulunun həcminə görə ölkəmizin iqtisadi rayonları arasında öncül yerlərdən birini tutan Naxçıvanda bu sahə yüksək gəlirliliyi ilə seçilir. Məhz buna görə də diyarımızın gələcək inkişafı üçün sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması dövlət siyasətinin əsas məqsədlərindəndir. Yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafına da əhəmiyyətli təsir göstərmiş, 2020-ci ildə sənaye məhsulunun həcmi artaraq 1 milyard 40 milyon 475 min 900 manat olmuş, sənayedə özəl sektorun payı isə 93,4 faiz təşkil etmişdir ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

Ölkəmizdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunması və qeyri-neft sektorunun inkişafı istiqamətində müəyyənləşdirilmiş strategiyaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasında həm yerli xammala əsaslanan, həm də yüksək texnologiya bazalı sənaye müəssisələrinin yaradılması işi uğurla davam etdirilir. 2020-ci ildə 138 layihə üzrə istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 42 layihənin icrası davam etdirilmişdir.





Görülən işlər nəticəsində muxtar respublikada yüksək texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr açılmış, yerli tələbatın ödənilməsi ilə bərabər, bir sıra istiqamətlər üzrə ixrac potensialı güclənməyə başlamışdır. Belə ki, fəaliyyəti genişləndirilən "Gəmiqaya Plastmas Kapsul və Qapaq" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Naxçıvan Avtomobil Zavodu" MMC, yenidən qurulan "Badamlı" Mineral Sular Zavodu və "Naxçıvan Duz İstehsalı" MMC üçün yeni müəssisənin və Duzdağda yeni şaxtanın tikintisi, qaynaq çubuğu, su əsaslı boya sahəsinin yaradılması sənaye sektorunda ixracın artırılması istiqamətində həyata keçirilən tədbirlərdəndir.

2020-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən müasir texnologiyaların tətbiqi ilə Naxçıvan şəhərində avtomobil istehsalı sahəsinin genişləndirilməsinə, enerji içkisi istehsalı sahəsinə, su taralarının, kapsul və qapaq sahəsinə, plastik məmulatların istehsalına və digər sənaye sahələrinə, ümumilikdə, 11 milyon 798 min manat məbləğində dövlət maliyyə dəstəyi göstərilmişdir ki, bu da 2019-cu illə müqayisədə 29 faiz çoxdur.

Bu gün muxtar respublika əhalisinin ərzaqla təminatı, əsasən, yerli məhsullar, daxili bazar hesabına ödənilir. Muxtar respublikada 127 növdə 608 çeşiddə ərzaq, 257 növdə 925 çeşiddə qeyri-ərzaq məhsullarının istehsalı üçün əlverişli şərait yaradılmışdır.

Muxtar respublikada kiçik və orta sahibkarlığın genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsi baxımından sənaye məhəllələrinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə atılan mühüm addımlardan biri muxtar respublikanın ən böyük rayonlarından olan Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılmasıdır. Bu da gələcəkdə həmin rayonda innovativ və yüksək texnologiyalar əsasında müasir sənayenin inkişafına təkan verəcək, özəl sektorun davamlı inkişafını təmin edəcək və əhalinin istehsal sahəsində məşğulluğunun artmasına imkan yaradacaqdır.

Muxtar respublikada qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, ənənəvi sənaye sahələrinin inkişafına da böyük diqqət göstərilir. Bu məqsədlə Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin qurulması, həmçinin yaradılması davam etdirilən Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsi özəl xalçaçılıq müəssisələrinin yun ipliyə olan tələbatını ödəməklə idxaldan asılılığı aradan qaldıracaqdır. Muxtar respublikanın sosial-iqtisadi strategiyasının əsasını təşkil edən sənayenin inkişaf dinamikası diyarımızın tərəqqisinə bundan sonra da öz töhfəsini verəcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Əmək pensiyalarının maliyyələşdirilməsi başa çatdırılmışdır

Son illər ölkə həyatının bütün sahələrində olduğu kimi, sosial və iqtisadi sahələrdə də müəyyənləşdirilən prinsiplər uğurla reallaşdırılmış, qısa müddətdə çox mühüm iqtisadi islahatlar aparılmış və beynəlxalq standartlara uyğun yeni sosial müdafiə modeli təşəkkül tapmışdır.

Muxtar respublikada da sosial-iqtisadi siyasət uğurla həyata keçirilir. Bütün sahələrdə davam etdirilən islahatlar sosial müdafiə sisteminin də inkişafına töhfələr verməkdədir. Pensiyaların maliyyələşdirilməsi və vaxtından əvvəl ödənilməsi, bu sahədə tətbiq olunan mütərəqqi üsullar pensiyaçılara daha yüksək səviyyədə xidmət göstərilməsi üçün imkanlar yaratmışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu da əmək pensiyalarının maliyyələşdirilməsi və pensiyaçılara çatdırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Fond hər ay olduğu kimi, aprel ayında da əhaliyə əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırmışdır. Pensiyaçılar pensiyalarını plastik bank kartları vasitəsilə bankomatlardan və kənd yerlərində yaşayan pensiyaçılar isə istəkləri nəzərə alınaraq poçt bölmələrindən də ala bilərlər. Bundan başqa, əhaliyə məcburi dövlət sosial sığortahaqları hesabına ödənilən müavinətlərin də maliyyələşdirilməsi üçün müvafiq işlər görülür.

Məlumat üçün bildirək ki, qanunvericiliyə uyğun olaraq sığortaolunanların pensiya təminatlarında məcburi dövlət sosial sığortahaqqı şəklində toplanan pensiya kapitalı nəzərə alınır. Ödənilən məcburi dövlət sosial sığortası vətəndaşların bu gününün və gələcəyinin təminatıdır. Eyni zamanda məcburi dövlət sosial sığortahaqqı üzrə vəsaitin fondun xəzinə hesabına vaxtında daxil olması əmək pensiyaları və məcburi dövlət sosial sığortası üzrə ödəmələrin də vaxtlı-vaxtında maliyyələşdirilməsinə şərait yaradır.

Fond bundan sonra da əhalinin sosial rifahının və həyat səviyyəsinin yüksəldilməsi üçün müəyyən edilən tədbirlərin icra olunması sahəsində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Zərifə xanım Əliyeva – səmimi insan, qayğıkeş və fədakar Azərbaycan alimi



*Ülvi insani keyfiyyətləri ilə mənəvi ucalığın zirvəsini fəth edən unudulmaz alim, akademik Zərifə xanım Əliyeva bütün varlığı ilə nur saçan bir insan idi. Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək amalına xidmət edirdi. Zərifə xanımın təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Geniş qəlbindən və dərin zəkasından çağlayan nur seli onu tanıyan insanların mənəvi dünyasına daim işıq salır.*

Bu il dünya şöhrətli alim-oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 98, əbədiyyətə qovuşmasının 36-cı ildönümüdür. Azərbaycan qadınlarına məxsus ləyaqətli, şərəfli bir ömür yaşamış Zərifə xanımın ürəklərdə əbədi yaşayan nurlu xatirəsi qədirbilən xalqımız tərəfindən hər il anılır.

Akademik Zərifə xanım Əliyeva mənalı və zəngin həyat yolu keçmişdir. O, qədim Naxçıvan diyarında, adlı-sanlı ziyalıların Vətəni olan Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdır. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdır.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Oftalmoloq ixtisasını seçmişdi. Buna görə də sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktik vərdişlərə yiyələnmiş, Oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da, onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə özünə rahat yollar seçməyərək Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə azm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc Zərifə xanım 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə əldə etdiyi elmi və praktik nailiyyətlərin tətbiqinə nail olmuşdu. Gənc alim 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı Sovetlər Birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir.

Çətinliklərdən qorxmayan, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını rahat kabinetlərdə aparmırdı. O, Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdır.

1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Zərifə xanım Əliyeva 1982-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri olmuş, 1983-cü ildə nəzəri və təcrübi təbabətdə qazandığı müvəffəqiyyətlərə, alınan elmi nəticələrin səhiyyə praktikasında geniş tətbiqinə, yüksəkixtisaslı tibbi kadrların hazırlanması yolunda göstərdiyi dəyərli xidmətlərə görə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan oftalmoloqları arasında Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk alimdir.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev demişdir: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

Görkəmli akademikin elmi-tədqiqat işlərinin mövzu dairəsi çoxşaxəli və genişdir. O, görmə orqanlarının virusla zədələnməsinə, bu səpkidə aparılan müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun “Herpetik göz xəstəliyi”, “Ağır virus konyunktivitləri” və sair əsərləri bu qəbildəndir. Zərifə xanım çoxsaylı elmi əsərlərin, monoqrafiya, səmərələşdirici təklif və dərs vəsaitlərinin müəllifi olmuşdur. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və elmi rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da görkəmli alim kimi tanınan Zərifə Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində göstərdiyi əvəzsiz xidmətlərinə görə “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Akademik həm də keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini kimi fədakarcasına çalışmış, bir sıra xarici ölkələrdə səmərəli görüşlər keçirərək dəyərli çıxışlar, məruzələr etmiş, dünya xalqlarını sülhə, əmin-amanlığa səsləmişdir. O, respublika “Bilik” Cəmiyyəti İdarə Heyətinin, keçmiş SSRİ-nin Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin, Moskvada çıxan “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə xanımın çoxistiqamətli elmi yaradıcılığı 12 monoqrafiya, dərslik və dərs vəsaitlərində, 160-dan çox elmi işdə, bir ixtira və 18 səmərələşdirici təklifdə öz əksini tapmışdır. Böyük alimin bütün mənalı ömrüboyu yaratdığı, lakin heç yerdə çap olunmayan bir kitabı da var: bu, heç bir dərsliyə, yaxud monoqrafiyaya sığmayan Zərifə xanım Əliyevanın həyat kitabıdır.

Zərifə xanım Əliyeva yaşadığı ömrə təkcə yaxşı həkim olmağı sığdırmamışdır. O, heç kəsin dərdinə biganə qalmayan qayğıkeş insan, vəfalı ömür-gün yoldaşı, mehriban ana idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Zərifə xanım əsl ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə qəlbdən bağlı olan insan idi. Ailə əsrlərboyu Azərbaycanda böyük mənəvi dayaq rolunu oynamışdır. Dəyanətli şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı kimi bu çətin, lakin şərəfli missiyanı da layiqincə yerinə yetirən, ulu öndərə etibarlı mənəvi dayaq olan Şəxsiyyət və Ana idi. Bir-birini heyrətamiz şəkildə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı müasir Azərbaycan cəmiyyəti üçün bir nümunə, milli dəyərlərimizə sədaqətin nadir örnəyidir. Akademik Zərifə xanım Əliyeva Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi milli lider bəxş edən Ana kimi də unudulmazdır. Azərbaycan Prezidentinin ölkə səhiyyəsinə və elminə qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması yolunda gördüyü işlər, ümumiyyətlə, ölkədə həyata keçirilən sosialyönümlü siyasət ulu öndərin müəyyən etdiyi siyasi xəttin uğurla davam etdirilməsinin parlaq təzahürüdür”.***

Akademik Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əvəzolunmaz alimin əziz xatirəsi daim ehtiramla yad olunur. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl insana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür. Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə olacaq, parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Əhalinin sağlamlığı diqqət mərkəzində saxlanılır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini mart ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.

Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasından hemofiliyalı və talassemiyalı xəstələr üçün faktor dərman preparatları, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya aparmaq üçün dərman preparatları, ilkin vərəm intoksikasiyasını aşkarlamaq məqsədilə İnnovasiya və Təchizat Mərkəzi və TƏBİB anbarından Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə 4 min doza tuberkulin və digər dərman preparatları gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər mart ayında da davam etdirilib. Belə ki, 3 həkim Bakı şəhərində, 1 rezident Naxçıvan şəhər tibb müəssisələrində təcrübə keçməsi üçün göndərilib. Tibb Kollecinin 42 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Xəstəxananın həkim briqadası tərəfindən Sədərək rayonunda 50, Şahbuz rayonunda yerləşən Ahıllar Evində olan 5 nəfər tibbi müayinədən keçirilib, lazımi məsləhət və təyinatlar verilib. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi Ahıllar Evində yaşayan sakinləri, tibbi və xidməti heyəti COVID-19 xəstəliyinə qarşı vaksinasiyadan keçirib.

Hesabat ayında Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Şahbuz rayonunun Qızıl Qışlaq, Güney Qışlaq, Kükü kəndlərində təhsil işçilərindən 31, kənd sakinlərindən 22 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 6 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət olunub.

“Azərbaycan Respublikasında COVID-19 infeksiyası əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq muxtar respublikamızda peyvənd işləri mart ayında da davam etdirilib. Profilaktika tədbiri olaraq 3480 tibb işçisinə II tur, 710 təhsil işçisinə, 907 vətəndaşa və hərbi sistemdə işləyən mülkü əhalidən 420 nəfərə I tur vaksinasiya aparılıb.

Naxçıvan Muxtar Respublikası ərazisində genişləndirilmiş dezinfeksiya tədbiri olaraq Fövqəladə Hallar Nazirliyi və Dövlət Baytarlıq Xidməti ilə birgə 536 min 861, Novruz bayramı tətili günlərində ümumtəhsil məktəblərində, universitet, kollec və məktəbəqədər müəssisələrdə 103 min 139 kvadratmetr sahədə dezinfeksiya işləri həyata keçirilib.

Hesabat ayı ərzində ərzaq istehsal edən müəssisələrdə sanitar vəziyyətə nəzarət məqsədilə yoxlamalar aparılıb, 21 istehsalat obyektində monitorinq keçirilib, 5 obyektdə sanitar vəziyyət barədə xəbərdarlıq edilib.

## Tibbi müayinələrə start verilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası istiqamətində, uşaq əhalisinin sağlamlığının qorunması və onlara göstərilən səhiyyə xidmətinin daha da yaxşılaşdırılması məqsədilə tədbirlər həyata keçirilir.

Şərur Rayon Uşaq Xəstəxanasının həkim briqadası dərin tibbi müayinələrə Şəhriyar kənd tam orta məktəbində start verib. Müayinələrdə pediatr, cərrah-travmatoloq, otolarinqoloq, nevropatoloq, oftalmoloq, stomatoloq ixtisaslı həkimlər iştirak edib. Məktəbin 120 şagirdi dərin tibbi müayinələrlə əhatə olunub.

Yaz mövsümünün profilaktik tibbi müayinələri aprelin 10-dan mayın 25-dək davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*2021-ci il “Nizami Gəncəvi ili”dir*

# Lirik şeirlərdən “Xəmsə”yə gedən yol

***Azərbaycan dünyada əsrarəngiz təbiəti, adət-ənənəsi, abidələri, folkloru və dahi şəxsiyyətləri ilə tanınıb. Bu şəxsiyyətlərdən biri kimi Nizami Gəncəvinin fəaliyyəti özünəməxsusluğu ilə seçilir. Nizami Gəncəvi yaradıcılığı Azərbaycan ədəbiyyatının əsas özəyidir. Nizaminin adı Azərbaycanla yanaşı çəkiləndə əsl bütövlük və tamlıq konsepsiyası ortaya çıxır.***



Nizami Azərbaycandır, Azərbaycanındır. Onun yaratdığı əsərlərdən süzülüb gələn doğmalıq, ahəng və qızıl nizam Azərbaycan mədəniyyəti, ruhu, milliliyi ilə paralellik təşkil edir. Professor Məhəmmədhüseyn Təhmasib yazır: “Qədim Azərbaycan ədəbiyyatı haqqında məlumat mənbələrindən biri də Nizami kimi dahinin əsərləridir. Nizami şifahi ədəbiyyatın bir çox janrlarından, xüsusilə qədim eposdan bacarıqla istifadə edib. Dahi sənətkarın “Xəmsə”sində yüzlərlə folklor nümunəsinə rast gəlmək olar”.



Azərbaycan müstəqillik qazandıqdan sonra milli maraqlar çərçivəsində dahi şəxsiyyətlərin həyatı, yaradıcılığı yenidən öyrənilmiş, onların təbliği istiqamətində mühüm işlər görülmüşdür. Bu kontekstdə bu gün də önəmli addımlar atılır. Prezident cənab İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi haqqında 2021-ci il 5 yanvar tarixli Sərəncamı bu aspektdən son dərəcə əhəmiyyətlidir. Sərəncam Nizami irsinin tədqiqi və təbliği istiqamətində ölkə və dünya əhəmiyyətli tədbirlər, kitab və monoqrafiyalar, filmlər, elmi-ictimai layihələrin icrası və həyata keçirilməsi baxımından böyük stimul, qayğı və dəstək mənbəyidir.

Sərəncamda deyilir: *“Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.*

*Nizami Gəncəvi ömrüboyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb-yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir”.*

Lirik şeirlərlə yaradıcılığa başlayan Nizami Gəncəvi divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrət qazanmışdır. Filologiya üzrə fəlsəfə doktoru, dosent Xəlil Ağaverdi Nizami Gəncəvinin əsərləri əsasında klassik ədəbi irsin folklorla əlaqəsini göstərmək məqsədilə onun əsərlərində xalq ədəbiyyatından istifadə meyilləri, xalq ruhuna dərindən bələd olduğu üçün Nizami tərəfindən yaradılmış folklor nümunələri və Nizaminin həyatı ilə əlaqədar yaranmış yeni folklor nümunələri, yaxud el variantı kimi yaranmış əsərlərdən bəhs edərək sənətkarın Azərbaycançılıq konsepsiyasına, milli ruhumuza yaxın olduğunu faktlarla əsaslandırmışdır.

Dərin, hikmətli kəlamları ilə xalqın rəğbət və sevgisini qazanan dahi sənətkar Azərbaycanın ən qədim şəhərlərindən, mədəniyyət mərkəzlərindən biri olan Gəncədə yaşayıb-yaradıb. 1141-ci ildə Gəncədə anadan olan mütəfəkkir, sonralar Gəncəvi (Gəncəli mənasında) adıyla tanınıb, əsl adı isə İlyasdır. Şairin tərbiyə və təhsilini dayısı Xacə Ömər öz üzərinə götürüb. Mənbələrdən oxuyuruq: “Ömrüboyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Təqribən, 1169-70-ci ildə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaq (Appaq) ilə evlənmiş, 1174-cü ildə oğlu Məhəmməd anadan olmuşdur”.

Dahi şair möhtəşəm fəlsəfi fikirləri və əsərləri ilə Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirərək dünya ədəbiyyatının incilərindən hesab olunan “Xəmsə”də (“Beşlik”) yaratdığı obrazlar, şəxsiyyətlər, fəlsəfi konsepsiyalar, siyasi və ictimai ideyalar aləmi ilə Nizami məktəbinin əsasını qoymağı bacarıb. Dünya ədəbiyyatı tarixinə adını qızıl hərflərlə həkk edən böyük Nizaminin ilk poeması (Əsər hicri tarixi ilə 570-ci ildə yazılmışdır ki, miladi təqvimi ilə 1174-1175-ci illərə uyğun gəlir) ilk dəfə Yaxın Şərqdə didaktik fəlsəfi şeirin nümunəsi hesab olunan “Məxzənül-əsrar”ı (“Sirlər xəzinəsi”)dir. Tarix elmləri doktoru Xeyirbəy Qasımovun “Orta əsrlərdə Azərbaycan mədəniyyəti” monoqrafiyasında bu barədə deyilir: “2263 beytdən ibarət olan bu poema Ərzincanın Səlcuq valisi (hakimi) Fəxrəddin Bəhramşah ibn Mənkuçəkə (1162-1225) ithaf olunub. Sonuncu İraq Səlcuq Sultanı III Toğrulun sifarişi ilə yazılmış “Xosrov və Şirin” poemasını Nizami 1180-ci ildə bitirmişdir. Şair 6966 beytdən ibarət olan bu poemanı Azərbaycan Atabəyi Məhəmməd Cahan Pəhləvanın ünvanına göndərmiş, lakin Atabəy 1186-cı ildə vəfat etdiyinə görə əsərin mədhiyyə hissəsi Qızıl Arslana həsr olunub. 1188-ci ildə Şirvanşah I Əxsitan şairə “Leyli və Məcnun” poemasını yazmağı sifariş etsə də, o, Şirvan hökmdarının sifarişini yerinə yetirməkdən boyun qaçırmaq istəyir, lakin oğlunun təkidi ilə Şərqdə ilk dəfə bu mövzuda poemanı yazmağı qəbul edir. Onun bu poeması 4613 beytdən ibarətdir. 1196-cı ildə yazdığı 4968 beytlik “Həft peykər” (“Yeddi səyyarə”, “gözəl”) poeması Ağsunqur Marağa hakimi Əlaəddin Körpə Arslana ithaf edilib. Şair, təqribən, 1203-cü ildə 2 hissədən ibarət olan “İsgəndərnamə” poemasını yazır. 10 min 540 beytlik poemanın birinci qismində (“Şərəfnameyi-İsgəndəri”) 6896, ikinci qismində (“İqbalnameyi-İsgəndəri”) isə 3644 beyt var”.

Azərbaycanın klassik ədəbi-mədəni irsinin qorunması və təbliğində misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Ulu öndərin təşəbbüsü ilə 1979-cu ildə “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qəbul edilən qərar, 1981-ci ildə ulu öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri, “Nizami” filminin çəkilməsi, “Xəmsə” kompleks abidələrinin ucaldılması, Nizami məqbərəsinin təmiri və qorunması, “Xəmsə”nin yeni tərcümə və nəfis tərtibdə nəşr edilməsi, dünyanın bir çox şəhərlərində Nizami heykəllərinin ucaldılması və digər tədbirlər dahi şəxsiyyət Heydər Əliyevin görkəmli Azərbaycan şairinin irsinə olan diqqət və qayğısının bariz nümunəsidir. Nizami xalqımızı BMT-də YUNESKO xətti ilə tanıdan ilk şəxs olub. Şairin 850 illik yubileyi şərəfinə 1991-ci il YUNESKO tərəfindən “Nizami ili” elan edilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi ilə bağlı dövlət səviyyəsində keçirilən silsilə tədbirlər dahi sənətkarın irsinin çoxşaxəli və bütöv halda öyrənilməsi istiqamətində geniş üfüqlər açmışdır.

Akademik İsa Həbibbəyli yazır: “Dahi sənətkar Nizami Gəncəvinin ölməz əsərləri həmişə gəncdir, aktualdır, bəşəridir və müasirdir. Nizami bütün zamanlar üçün humanizmin, ədalətin, bərabərliyin böyük carçısıdır. Bəşəriyyətin həmişə Nizami Gəncəvinin böyük ideallarına ehtiyacı olacaqdır”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2017-ci il 28 avqust tarixli “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamı ilə gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların Siyahısı”nı təsdiq edib. Vurğulayaq ki, siyahıya dahi Nizaminin “Sirlər xəzinəsi” peoması, “Nizaminin hikmət və nəsihətləri” kitabları da daxil edilib. Bu uzaqgörən siyasət klassik irsimizə yüksək dövlət qayğısı, gənclərin mənəvi tərbiyəsinə mühüm töhfə olmaqla, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi kimi mühüm tarixi qərarla da öz aktuallığı ilə səsləşir. Muxtar respublikamızda da “Nizami ili” çərçivəsində görüləcək işlər, aparılacaq elmi-tədqiqatlar dahi şairin həyatının, tükənməz və bəşəri dəyər kəsb edən ədəbi irsinin öyrənilməsinə və təbliğinə öz töhfəsini verəcək.

**Nərgiz İSMAYILOVA**
***filologiya üzrə fəlsəfə doktoru***

***Dünən “Məktəblilərin dram müsabiqəsi”nin yekununa həsr olunmuş tədbir keçirilib.***

# “Məktəblilərin dram müsabiqəsi”nin qalibləri mükafatlandırılıb



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb. Vurğulanıb ki, 2021-ci il yanvarın 11-dən başlayaraq 3 mərhələdə keçirilən “Məktəblilərin dram müsabiqəsi”ndə 170 məktəb üzrə 1400-ə yaxın şagird iştirak etmişdir. Əsərlərdən səhnələşdirilən parçalar münsiflər heyəti tərəfindən qiymətləndirilmişdir. Şagirdlərin hazırladıqları səhnələrin tərtibatı, əsərdəki dövrlə səsləşən geyim və aksesuarlardan istifadə etmələri, əsərlərin mahiyyəti və ideyasını tamaşaçıya çatdıra bilmələri, dialoq və kompozisiyaları canlı ifa etmələri onu deməyə əsas verir ki, müsabiqə böyük marağa səbəb olmuş və müsabiqəyə hazırlıq yüksək səviyyədə təşkil edilmişdir.



Təhsil naziri ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılması üçün yaradılan əlverişli şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Mədəniyyət naziri Natavan Qədimova qeyd edib ki, bu gün muxtar respublikada teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Hazırda muxtar respublikada fəaliyyət göstərən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, bölgələrdə fəaliyyət göstərən 5 xalq teatrı tamaşaçıların asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır.

Mədəniyyət naziri bildirib ki, “Məktəblilərin dram müsabiqəsi” bundan sonra da şagirdlərin kitab mütaliəsinə marağının artmasına, onların bədii-estetik zövqünün və bədii qiraət bacarığının formalaşmasına, nəhayət, muxtar diyarımızda teatr sənətinə olan marağın güclənməsinə dəyərli töhfə olacaqdır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev çıxışında diqqətə çatdırıb ki, şagirdlər arasında keçirilən “Məktəblilərin dram müsabiqəsi”, “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan əsərlərin məktəblilər tərəfindən mütaliə olunması, eləcə də həmin əsərlərdən parçaların səhnələşdirilməsi şagirdlərin bacarıq və istedadını üzə çıxarır.

“Məktəblilərin dram müsabiqəsi”ndə Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvlərinin hazırladığı Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun əziz xatirəsinə həsr olunmuş səhnəcik III yerin, Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının hazırladığı Mirvari Dilbazinin “Xocalı fəryadı” əsəri II yerin, Culfa rayon Qızılca kənd tam orta məktəbin şagirdlərinin hazırladığı Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” əsəri isə I yerin qalibi olub. Qaliblər təşkilatçılar tərəfindən plaket və oxunması zəruri olan kitablarla mükafatlandırılıblar. Həmçinin müsabiqə müddətində aktyorluq bacarığı ilə fərqlənən 14 şagird də mükafatlandırılıb.

Sonra “Məktəblilərin dram müsabiqəsi”nin seçim mərhələləri ilə bağlı hazırlanan videoçarx təqdim edilib. Tədbirin sonunda müsabiqədə yer tutan səhnəciklərə baxılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# İstehsalat təcrübəsinin başlanğıc konfransı

*Naxçıvan Muxtar Respublikası Turizm Departamentində “Naxçıvan” Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan III kurs tələbələri üçün 2020-2021-ci tədris ilinin yaz semestrində keçəcəkləri istehsalat təcrübəsinin başlanğıc konfransı keçirilib.*



Konfransı giriş sözü ilə departamentin direktoru Əkbər Novruzov açaraq istehsalat təcrübəsinin tələbələr üçün əhəmiyyətindən danışıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin Turizm və otelçilik ixtisasları departamentə hamiliyə verilmişdir. Sərəncamın icrası ilə əlaqədar mütəmadi olaraq tələbələrlə görüşlər, müxtəlif mövzularda seminar və konfranslar keçirilir, onların ekskursiyalarda iştirakı təmin olunur.

“Naxçıvan” Universitetinin təcrübə rəhbəri Əli Cabbarov və Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin statistika və sertifikatlaşdırma sektorunun müdiri Süleyman Rüstəmov çıxış edərək istehsalat təcrübəsinin proqramı haqqında tələbələrə məlumat veriblər. Qeyd olunub ki, təcrübə müddətində tələbələrin Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin və tabeliyində olan müəssisələrin, eləcə də Naxçıvan şəhərində yerləşən muzeylərin, həmçinin muxtar respublikada fəaliyyət göstərən mehmanxanaların və turoperatorların fəaliyyəti ilə tanışlığı təmin ediləcəkdir.

Sonda suallar cavablandırılıb, muxtar respublikanın turizm potensialını əks etdirən videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

*Yurdumuzun nemətləri*

# Dağlardan gələn ləziz nemət – yaz pencərləri

***Artıq el-obamız da yaz ətrinə bürünüb. Yazın ilk müjdəçisi qaranquşlar sayılsa da, ətrini həm də min bir dərdin dərmanı sayılan çöl bitkilərindən alırıq. Elə biz də bu ətri duymaq üçün ötən həftəsonu dağı, düzü can dərmanı sayılan bitkilərlə zəngin olan Şahbuz rayonuna üz tutduq. Yolumuz rayonun Keçili kəndinədir.***

Yolboyu seyr etdiyimiz mənzərələr – ağacların çiçək açması, zəmilərin artıq yaşıl örpəyə bürünməsi insanı valeh edir. İlin bu vədəsində işi-



gücü, necə deyərlər, başından aşan kənd sakinləri səhərin erkən saatlarından sahəyə çıxır, əkinbiçin üçün ilk hazırlıqlarını görürlər. Lakin bu qədər işin arasında bu günlərin ən ləziz, faydalı nemətləri sayılan – cacıq, qazayağı, çiriş, şomu, yarpız, quşəppəyi yığmağa da mütləq zaman ayırırlar. Elə çoxdan tanıdığım Keçili kənd sakini Tovuz xala kimi. Onunla birlikdə sadaladığımız bitkilərlə oxucularımızı tanış etmək üçün kəndin dağlarına üz tuturuq.

Yolboyu təbiətin səxavətindən söhbət açan Tovuz xala deyir ki, Uca Yaradan bu diyarın insanlarına ruzilərini özlərindən əvvəl verib. Bu yurda elə səxavətlə min bir naz-nemət bəxş edib ki, yığıb istifadə etməklə bitmir, tükənmir. Bizə düşən isə onların qədrini bilməkdir. Yığanda da elə yığmalıyıq ki, bar-bərəkətimiz tükənməsin, bu gözəl nemətlər hər zaman süfrələrimizin bəzəyi, canımızın sağlamlığı olsun.

Hələ qədimdən bərəkətli torpaqlarımızda bitən, vitamin və minerallarla zəngin olan bu bitkilərdən müalicə vasitəsi kimi də istifadə etmişik, cürbəcür yeməklər də hazırlamışıq. Erkən yazda təbiətin qoynundan toplanan müxtəlif növ bitkilər həm də kənd adamının qazanc mənbəyinə çevrilib. Elə ki yaz gəldi, şimşək çaxıb təbiətə halallıq verdi, kəndimizin qız-gəlinləri ilə birlikdə üz tuturuq yurdumuzun dağlarına, düzlərinə, hər biri min bir dərdin dərmanı olan bitkilərdən toplamağa. Sübhün saf, təmiz havasında təbiətin qoynunda olmağın özü sağlamlığa çox xeyirdir.

Bir xeyli məsafə qət etdikdən sonra evdən hazırlıqlı gələn Tovuz xala pendir və lavaş çıxararaq: – Bir az dincələk, – deyir. Pencər yığa-yığa təmiz havada lavaş, pendir, qaymaq yeməyin öz ləzzəti var.

Tovuz xala deyir ki, kəndimizdə bitən bitkilərdən təkcə yaz aylarında yox, ilin hər fəslində yeməklər hazırlayıram. Yazda onları təzə-təzə toplayıb günaşırı bişirirəm. Bu bitkilərin bəziləri var ki, onları qurudub qışa da saxlayıram. Cacıq, çiriş, qazayağını isə yaxşıca yuyub azca qaynatdıqdan sonra süzüb, sıxıram. Soyuduqdan sonra kiçik torbalara yığıb dondurucuda saxlayıram. Bundan başqa, cacığı təmizləyib yaxşıca yuduqdan sonra şüşə balona yığır, üstünə qaynar su, hər litrə bir xörək qaşığı duz əlavə edir, 10 dəqiqə qaynadıqdan sonra ağzını qapaqla bağlayıram. Bunu sərin yerdə saxlamaq lazımdır.

Müsahibim qış süfrələrinin ləziz dadı çaşır və baldırğan turşusunun hazırlanma qaydasından da danışır:

– Çaşırdan turşu tutmaq üçün onu çeşidləyir, yeni körpə zoğları ayırırıq. Çünki körpə çaşırla nisbətən qalınları bir yerdə qaynatmaq olmaz, əzilər və ya çiy qalar. Qazanda su qaynadır, çaşırı az-az həmin suya tökür, pörtlədir, sonra isti sudan çıxarıb pendir suyu olduqda ona, olmasa, ayran çalıb içərisinə tökürük. Pendir suyu, ayran çaşırın rəngini ağardır. Bir neçə saat orada qaldıqdan sonra süzür, yaxşıca yuyuruq. Balonlara yığıb hər kiloqramına bir qaşıq duz, su töküb 10 dəqiqə qaynadır, üç litrlik balona bir xörək qaşığı sirkə əlavə edib bağlayırıq. Baldırğanı da çeşidləyib, 5 dəqiqə qaynadıb soyuq suya tökür, bir neçə saat saxlayıb, sonra eyni qaydada balonlara yığıb bağlayırıq. Tutmalara tökülən duz iri dənəli olsa, daha yaxşıdır.

Qırxbuğum bitkisi haqqında da söhbət açan Tovuz xala deyir:

– Bitki çiy və bişirilmiş halda istifadə edilir. Ondan dovğa, buğlama, aş, kətə, salatlar hazırlanır. Qırxbuğumun düyü ilə bişirilmiş aşı sa-



rımsaqlı qatıqla çox dadlı olur. Bu bitki aprel-may aylarında yığılıb qurudulur və qış üçün tədarük edilir. Qış aylarında ondan umac, səbzi (ət ilə qızartma) bişirilir. Qurudulub un halına salınmış kütləsindən sıyıq hazırlanmasında istifadə olunur. Qırxbuğumlu aş bişirmək üçün onu kiçik hissələrə bölür, düyünü süzür, sonra qazanın dibinə qazmaq qoyur, bir qat düyü, bir qat qırxbuğum yığılır, üzərinə yağ, zəfəran əlavə edilib dəmə qoyulur. Qırxbuğum dərman kimi də istifadə olunur. Bunun üçün bitki çiçəkləyən dövrdə toplanıb qurudulur. Xalq təbabətində ondan hazırlanmış dəmləmə və cövhərlər mədə-bağırsaq xəstəliklərinin müalicəsində, ağrıkəsici və iltihabgötürücü vasitə kimi istifadə edilir. Yarpaqlarından çıxıq və sınıqlara, çibantipli yaralara təpitmə qoyulur.

Tovuz xala min bir dərdin dərmanı olan uşqun haqqında deyir ki, bitkinin yığılma dövrü, əsasən, aprel ayının 20-dən may ayının sonunadəkdir. O, cəmi 25-30 gün ərzində yeyilməli olur. Həmin vaxt keçdikdən sonra yeyilən hissəsi – özəyi bərkisə də, yayın ortalarına kimi onun həm çiçəyindən, həm də ətrafındakı yarpaqlarından istifadə etmək olur. Mineral və vitaminlərlə zəngin olan uşqundan şəkər, xərçəng, ürək xəstəliklərində, həzm prosesinin yaxşılaşdırılmasında geniş istifadə edilir. Daha çox susuzluğu yatıran vasitə kimi də yeyilir. Şəkər xəstəliyində yaranan susuzluğun qarşısını alır. Uşqunun yanlarından çıxan hissələrini onun özəyi kimi satanlar da olur, amma onun yeyilməli yeri yarpaqların ortasından çıxan özəyidir. Uşqun banan kimi soyulub yeyildiyindən ona Anadoluda "dağ bananı" deyirlər. Uşqun dağlarda bitən ən böyük yarpaqlara malik bitkidir. Dadı turşməzə və bir qədər də acıdır. Yığılma vaxtı bitdikdən sonra özəklər daha da böyüyür, azacıq sarı və qızılı rəngə çalan balaca çiçəklər açır. Həmin vaxt insana elə gəlir ki, sanki dağlara qar yağıb. Elə ki çiçəklərin xoş ətri dağı, dərəni, yamacları bürüdü, onu yığaraq sərin yerdə qurudurlar.

Müsahibim onu da bildirir ki, bu şəfalı bitkidən qışda istifadə etmək üçün turşu və mürəbbə də hazırlayırlar. Çaşır, baldırğan kimi tutulan bu turşunun fərqi bircə ondadır ki, uş-



qunun qabığı təmiz soyulur, isti suda pörtlədilmir, çiy şəkildə duza qoyulur. Bir gün iri ləyəndə duza yatırıldıqdan sonra lay-lay bankaya yığılır, üzərinə qaynadılıb soyudulmuş duzlu su tökülür.

Bu bitkinin mürəbbəsini də hazırladığını deyən müsahibim bildirir ki, mürəbbə üçün kövrək özəklər qabığı soyularaq balaca-balaca doğranır. 1 kiloqram uşqun üçün, təxminən, 1,5 kiloqram şəkər tozu götürülür, 3-5 stəkan suda qarışdırılaraq şirə hazırlanır. Qaynayan şirəyə uşqun əlavə edilir və bir gün şirə çəksin deyə, hazırlanan şirədə qalır. Səhəri gün ərik mürəbbəsində olduğu kimi qaynadılaraq bişirilir. Mürəbbədən, əsasən, ağır soyuqdəymələr zamanı istifadə edilir. Adətən, mürəbbə ilə çay içəndə insan tez-tez susuzlayır. Amma uşqun mürəbbəsi, əksinə, susuzluğu azaldır.

Tovuz xala söhbətinə davam edərək xatırlayır



ki, anam hər zaman deyərdi ki, bu bərəkətli torpaq Allahın bizlərə bəxş etdiyi ehsandır. Bu nemətləri Tanrı torpağımıza bəxş edib. Əcdadlarımız bu otlardan yüz illərboyu həm dərman vasitəsi, həm də qida kimi istifadə ediblər. Biz də bu torpaqda boy göstərən həmin bitkilərdən faydalanmışıq, onların çoxalmasına, artmasına çalışmışıq. Əmanət bilmişik onları. Siz də elə bilin, yararlanın, amma bunu elə edin ki, onların kökü kəsilməsin. Mən də onun bu sözlərinə əməl etməyi həmişə bitki toplayanlara məsləhət görürəm. Deyirəm ki, bitkilərin yığılma qaydasını düzgün yerinə yetirin, qoy onların kökü kəsilməsin. Axı bu dağlarda bitən bitkilər elə zamanlar olub ki, elimizin insanlarını aclıqdan qoruyub, insanlara şəfa verib. Şükür Allaha, bu gün yurdumuzda sülh və əminamanlıqdır. Hər tərəf – dükan, bazar cürbəcür nemətlərlə dolub-daşır. Amma mən deyərdim ki, ilin bu vaxtında bir boşqab qovurmalı cacıq bir şiş kababdan daha dadlı gəlir insana.

*Tovuz xala ilə söhbətimiz bizə zamanın necə keçdiyini unutdurur. Artıq geri qayıtmağın vaxtıdır. Gəldiyimiz qənaət isə budur ki, hər qarışı xəzinə olan torpaqlarımızın, o torpaqların yetirdiyi, bitirdiyi nemətlərin qədrini bilməli, onlardan lazımınca istifadə edib gələcək nəsillərə də əmanət etməliyik.*

✍ **Telli MƏMMƏDOVA**

## Yeni yaradılan üzüm sortlarına patent və müəlliflik şəhadətnaməsi verilib



AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitunun Meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmləri doktoru, dosent Varis Quliyevin üzümçülük üzrə uzun illərdən bəri apardığı məqsədyönlü elmi-tədqiqat işləri uğurla nəticələnib. Tədqiqatçı alimə müxtəlif genetik üsullarla yeni yaratdığı "Naxçıvan muskatı", "Əlincə", "Oğuz üzümü", "Qəhvəyi kişmişi", "Milax üzümü", "Bənəniyar üzümü" adlı üzüm sortlarına görə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Aqrar Xidmətlər Agentliyi tərəfindən 6 patent və müəlliflik şəhadətnaməsi verilib.

Təcrübəli ampeloqraf alim Varis Quliyev 40 ilə yaxın müddətdə üzüm bitkisinin genetikası və seleksiyası istiqamətində məqsədyönlü elmi-tədqiqatla məşğuldur. Aparılan tədqiqatların əsas məqsədi muxtar respublikada üzüm genofondunun tədqiqi, təsərrüfat-texnoloji xüsusiyyətlərinin araşdırılması, tətbiqyönümlü sortların müəyyənləşdirilməsi, seleksiya yolu ilə şaxtaya, xəstəlik və zərərvericilərə qarşı dözümlü yeni sortların əldə olunmasıdır. Artıq qarşıya qoyulan uzunmüddətli məqsədə nail olunub.

"2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair", "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair" Dövlət proqramlarının qəbul olunması üzüm sortları ilə bağlı tədqiqatların intensiv aparılmasına stimul yaratmışdır.

Çoxillik araşdırmaların nəticəsi olan yeni üzüm sortlarına 2020-ci ilin iyun ayında Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Azərbaycan Respublikası ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin Dövlət Reyestrində qeydə alınmışdır.

Qeyd edək ki, "Qəhvəyi kişmişi" tezyetişən, "Əlincə", "Oğuz üzümü", "Milax üzümü" orta vaxtda yetişən, "Naxçıvan muskatı" və "Bənəniyar üzümü" isə gecyetişən üzüm sortları qrupuna daxildir. Artıq yeni alınmış perspektivli və iqtisadi əhəmiyyətli üzüm sortlarının ölkəmizin əsas üzümçülük bölgələrində yayılmasına və becərilməsinə başlanılmışdır.

Aqrar elmləri doktoru, dosent Varis Quliyev həm də "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", ikicildlik "Azərbaycan ampeloqrafiyası" və digər fundamental əsərlərin əsas müəllifidir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## İntellektual oyunun qalibləri müəyyən olub

***Gənclərin iştirakı ilə "Axtar tap" intellekt yarışması Naxçıvan şəhərindəki Sahil Parkında keçirilib.***



İştirakçılar komanda şəklində mübarizə aparıblar. Onlar oyunun qaydaları haqqında məlumatlandırıldıqdan sonra mübarizəyə start verilib. Reqlamentə uyğun olaraq oyun 7 raunddan ibarət olub. Raundların hər birində komandalara ümumi sual ünvanlanıb və doğru cavaba uyğun şəkildə tapşırıqlar icra olunub. İştirakçılar eyni anda mübarizəyə başlayıb. Raundlar üzrə ardıcıl və müvəffəqiyyətlə irəliləyən, qarşıya qoyulan vəzifəni ən tez icra edən komandalar mükafatçılar sırasına düşüblər.

Yekun nəticəyə əsasən "Yaşma" komandası oyunu qələbə ilə bitirərək "Axtar tap" kubokuna layiq görülüb. "Simurq" və "Dəmir yumruq" komandaları müvafiq olaraq ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən intellektual oyunun mükafatçıları fəxri fərman və oxunması zəruri olan kitablarla təltif ediliblər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Mini-futbol birinciliyi

*Şərur Rayon Gənclər və İdman İdarəsi, rayon Təhsil Şöbəsi və Uşaq-Gənclər İdman Məktəbinin (UGİM) təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında mini-futbol üzrə rayon birinciliyi keçirilib.*



Gənclər və İdman İdarəsinin mini-futbol meydançasında təşkil olunan yarışa məktəblilərdən ibarət 9 komanda qatılıb. Final oyununda Yengicə kənd tam orta məktəbinin komandasını 6:1 hesabı ilə məğlub edən UGİM-in şagirdləri birinciliyin qalibi olublar. Çərçiboğan kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Sonda qaliblər mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Arpaçay kənd sakini Həsənov İsfəndiyar İsa oğlunun adına verilmiş JN-23 inventar nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qorçulu kəndində yaşamış Quliyev Əli Qədim oğlunun adına verilmiş JN-16A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 310